AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN
(OMBUDSMANIN) APARATI

# İşgəncəyə - yox !

## Çevik araşdırma qrupu İlə əməkdaşlığa hazırsınızmı?

Bakı - 2004

## ÖN SÖZ

**Salam əziz oxucumuz!**

Artıq 18 oktyabr 1991-ci ildən sən müstəqil Azərbaycan dövlətində yaşayırsan.

12 noyabr 1995-ci ildə müstəqil dövlətimizin ilk milli Konstitusiyası qəbul olunmuşdur ki, onun 158 maddəsindən 48-i mənim, sənin, hər bir azərbaycan vətəndaşının insan hüquq və azadlıqlarını təsbit edir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, hər kəs doğulduğu andan toxunulmaz, pozulmaz, ayrılmaz hüquq və azadlıqlara malikdir. Bu hüquq və azadlıqların təmin edilməsi dövlətin ali məqsədidir.

Konstitusiyamız hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnu təsbit edir. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında təsbit olunmuş insan hüquq və azadlıqlarının qorunması səlahiyyətli dövlət qurumlarının vəzifəsidir. İnsan hüquq və azadlıqlarının qorunması məqsədilə ölkəmizdə müxtəlif hüquq müdafiə mexanizmləri mövcuddur. Ölkəmizdə yeni, məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan **Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı yaradılmışdır.**

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmiş, 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının ilk Ombudsmanı seçilmiş, 2002-ci il oktyabrın 28-dən etibarən Ombudsman Aparatında ərizəçilərin qəbuluna və şikayətlərin araşdırılmasına başlanılmışdır.

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsi** Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilmişdir.

İşgəncəyə - yox!

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələblərinə əsasən, cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.

Konstitusiya Qanununa əsasən, insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı Müvəkkilin maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə daxil olmaq, cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslərlə görüşmək və təkbətək söhbət etmək, onların həmin yerlərdə saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmaq hüquqları vardır.

Qanunda təsbit olunmuş səlahiyyətlərin daha effektiv və operativ həyata keçirilməsi məqsədilə 2004-cü ilin iyun ayından etibarən Azərbaycan Respublikasının İnsän Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) ATƏT-in Bakı Ofisi ilə əməkdaşlıqla "Təcridxanalarda, müvəqqəti saxlanılma yerlərində işgəncə hallarının qarşısının alınması, insan hüquqlarının pozulması hallarının araşdırılması və şikayətlərin sürətli cavablandırılmasında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) yardım" Layihəsi çərçivəsində Ombudsmanın Aparatının əməkdaşlarından ibarət **"Çevik araşdırma qrupu" yaradılmışdır.**

Diqqətinizə təqdim oiunan bu yaddaş kitabçasında işgəncənin anlayışı, subyekti, işgəncəni cinayət əməli kimi qadağan edən beynəlxalq və daxili qanunvericilik aktları, həmçinin işgəncə faktını araşdırmaq və aradan qaldırmaq səlahiyyətinə malik olan Ombudsmanın yanında "Çevik araşdırma qrupu" barədə məlumat öz əksini tapmışdır.

**E. Süleymanova**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

**İşgəncəyə - yox!**
**Çevik araşdırma qrupu ilə əməkdaşlığa hazırsınızmı?**

**İşgəncəni cinayət əməli kimi qadağan edən beynəlxalq müqavilə və daxili qanunvericilik aktları haqqında məlumatınız varmı?**

İşgəncəni cinayət əməli kimi qadağan edən beynəlxalq müqavilələr sırasında BMT-nin Baş Məclisi tərəfindən 10 dekabr 1984-cü ildə qəbul edilmiş "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiyanı və Avropa Şurası tərəfindən 26 noyabr 1987-ci ildə qəbul edilmiş "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Konvensiyanı qeyd etmək olar.

Azərbaycan Respublikası 1996-cı ildən BMT-nin "İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə" Konvensiyasının, 2001 -ci ildən isə "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasının iştirakçısıdır.

BMT Konvensiyasının 1-ci maddəsində "işgəncə" termini dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki və ya onların xəbərdar olması, yaxud göz yumması ilə hər hansı bir şəxsə ondan və ya başqa şəxsdən məlumat almaq, yaxud onun ətirafına nail olmaq, onu və ya başqa şəxsi törətdiyi, yaxud törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq, həmçinin onu və ya başqa şəxsi qorxutmaq və ya məcbur etmək, yaxud hər hansı xarakterli ayrıseçkiliyə əsaslanan istənilən səbəbə görə qəsdən tətbiq edilən güclü fiziki, yaxud mənəvi ağrı və ya əzab yetirən hərəkətlər kimi qeyd edilmişdir. Bu anlayışa qanuni sanksiyalar nəticəsində törəyən, həmin sanksiyaların ayrılmaz tərkib hissəsi olan, yaxud onların təsadüfən doğurduğu ağrı və əzablar daxil edilmir.

Əməlin işgəncə kimi tövsif edilməsi üçün rəftar müəyyən qəddarlıq səviyyəsinə çatmalıdır.

Qeyri-insani rəftar anlayışı altında konkret şəraitdə bəraət

qazandırılmayan qəsdən güclü fiziki və ya mənəvi əzab yetirilməsi kimi rəftar başa düşülür.

İşgəncə anlayışı çox vaxt cəzalandırmağa və ya müəyyən məqsədə nail olmağa, məsələn, məlumat və ya etirafın alınmasına yönəlmiş qeyri-insani rəftarı təsvir etmək üçün istifadə olunur. Bir qayda olaraq, işgəncə qeyri-insani rəftarın daha ağır formasıdır.

Konvensiyaya əsasən işgəncənin subyekti, yəni işgəncəni törədənlər aşağıdakı şəxslər ola bilər:

Dövlət adından çıxış edən və dövləti təmsil etmək səlahiyyətinə malik vəzifəli şəxslər;

Vəzifəli şəxs olmayan, lakin müəyyən nəzarət funksiyasını yerinə yetirən rəsmi şəxslər; Yuxarıda adlan qeyd olunan şəxslərin təhriki, qabaqcadan xəbərdar olması və ya göz yumması ilə işgəncələrə yol verən şəxslər;

Dövlət məmurları bütün səviyyədə işgəncənin qarşısını ala bilmədiklərinə və ya bunun üçün heç bir tədbir görmədiklərinə görə məsuliyyət daşıyırlar. Eyni zamanda qeyd etmək zəruridir ki, yüksək vəzifəli şəxsin, yaxud dövlət hakimiyyəti orqanının əmri işgəncə verilməsinə bəraət qazandıra bilməz və hər hansı şəxs əmr əsasında fəaliyyət göstərsə belə öz əməllərinə görə məsuliyyət daşımalıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin II bəndinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir.

Azərbaycan Respublikasının Konstitusiyasının 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsinə əsasən şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan

rəftara və ya cəzaya məruz qala bilməz.

İşgəncə ilə müşayət olunan qeyri-hüquqi hərəkətlər Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən məsuliyyətə səbəb olur. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 113-cü maddəsində tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə işgəncə cinayəti kimi ifadə edilmişdir. Həmçinin işgəncə vermə cinayət kimi həmin məcəllənin 133-cü maddəsində təsbit olunmuşdur.

Azərbaycan Respublikasının cinayət-prosessual və cəzaların icrası qanunvericiliyində də işgəncələrə qarşı mübarizə məsələləri ilə bağlı bir neçə müddəalar nəzərdə tutulmuşdur. Məsələn Cinayət-Prosessual Məcəlləsinin 15-ci maddəsində işgəncələrin yolverilməzliyi özünün dəqiq ifadəsini, həmin Məcəllənin 153-cü maddəsində isə tutulmuş şəxsin hüquqlarının təmin edilməsi özünün hüquqi təsbitini tapmışdır.

### "Çevik araşdırma qrupu" barədə nə bilirsiniz?

Qrupun əsas məqsəd və amalı müvəqqəti saxlanılma yerlərində insan hüquqlarının pozulması hallarının araşdırılması və "qanunun aliliyi" prinsipinin daxili işlər orqanlarının işçiləri arasında təbliğ edilməsindən, hüquq-mühafizə orqanlarında ümumiyyətlə zorakılığın qarşısının alınması, həmçinin polisin öz vəzifə borcunu nə dərəcədə məhsuliyyətlə və qanunauyğun şəkildə yerinə yetirdiyini müəyyən etməkdən ibarətdir.

Hər bir müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslərlə qanuna müvafiq qaydada, humanizm prinsiplərinə uyğun davranılmalıdır. Hər hansı işgəncə və digər qəddar rəftar son nəticədə bütövlükdə dövlətin nüfuzuna ziyan gətirir.

### "Çevik araşdırma qrnpu"nun fəaliyyət dairəsi kimləri əhatə edir?

Qrupun fəaliyyət dairəsi polis idarə, şöbə və bölmələrini və ümumiyyətlə hüquq mühafızə orqanlarının tabeçiliyində olan müvəqqəti saxlanılma yerlərini əhatə edir.

### "Çevik araşdırma qrupunun" vəzifələri hansılardır?

Qrupun vəzifəsi müvəqqəti saxlanılma yerlərində işgəncə və digər hüquq pozuntusu barədə daxil olmuş şikayətlər əsasında cəld hərəkət etməklə məlumatda qeyd olunmuş faktların hadisə yerində operativ şəkildə

yoxlanılmasından, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılmasında və gələcəkdə təkrar olunmamasının təmin edilməsində əlaqədar dövlət qurumları ilə əməkdaşlıq etməkdən ibarətdir. Qrup həmçinin öz təşəbbüsü ilə müvəqqəti saxlanılma yerlərinə mütamadi olaraq baş çəkir, monitorinq həyata keçirir.

**"Çevik araşdırma qrupu"nun başçəkməsinin məqsədi nədən ibarətdir?**

Başçəkmələrin məqsədi tutulmuş şəxsləri işgəncə və digər qəddar rəftardan müdafiə etməkdən, tutulmuş şəxslərlə davranışın işgəncə və digər qəddar rəftarın qarşısını almaqdan, həmçinin, tututulan şəxsin qohumlarına məlumatın verilməsini, vəkilə və həkimə olan ehtiyacın təmin edilməsini yoxlamaqdan ibarətdir.

**Başçəmələr hansı formada həyata keçirilir?**

Başçəkmə bir qayda olaraq qrupun ən azı iki və daha çox üzvü tərəfindən həyata keçirilə bilər.

Müstəsna hallarda, məsələn, təxirəsalınmaz başçəkmələr zamanı "Çevik araşdırma qrupu" yalnız bir üzvü tərəfindən təmsil oluna bilər.

Polis əməkdaşı onun qarşısında "Çevık araşdırma qrupu"nun üzvünün olduğunu nədən bilməlidir?

Təhlükəsizlik baxımından növbətçi polis nəfəri müvəqqəti saxlanılma yerlərinə başçəkən şəxslərin sənədlərini yoxlamağa haqqlıdır, hətta bunu etməyə borcludur.

Bu tələbə cavab vermək məqsədi ilə "Çevik araşdırma qrupu"nun üzvlərində onların kimliyini təsdiq edən xidməti sənəd

olmalı və müvəqqəti saxlanılma yerlərinə daxil olarkən, həmin sənəd səlahiyyətli şəxsə təqdim etməlidir.

**Növbətçi polis əməkdaşının "Çevik araşdırma qrupu"nun üzvlərinin baxış keçirmək məqsədilə təcridxanaya, yaxud polis bölməsinə dərhal keçmələrinə maneə törətməsinə ixtiyarı varmı?**

"Çevik araşdırma qrupu"nun üzvlərinin gəlmələri haqda növbətçi polis əməkdaşının əvvəlcədən xəbərdarlıq edilib-edilməməsindən asılı olmayaraq, şəxsiyyeti təsdiq edən sənədlər dərhal yoxlanılmalı, həmin şəxslər təcridxanaya və digər müvəqqəti saxlanılma yerlərinə buraxımalıdırlar.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun 12.2.1-ci maddəsinə əsasən, insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı Müvəkkilin maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə daxil olmaq, cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslərlə görüşmək və təkbətək söhbət etmək, onların həmin yerlərdə saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmaq hüquqları vardır.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirinin 12.06.2002-ci il tarixli 224 nömrəli əmrinə əsasən Daxili İşlər Nazirliyinin 66.11.2001-ci il 428 nömrəli əmri ilə təsdiq edilmiş "Polis orqanlarının müvəqqəti saxlama təcridxanalarında saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair" Təlimata aşağıdakı məzmunda yeni bənd əlavə edilmişdir:

- 1.8. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa müvafiq olaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili şikayətin araşdırılması ilə əlaqədar:
- MST-də saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini yoxlaya bilər;

- MST-yə maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən daxil ola bilər;
- MST-nin rəisi Müvəkkilin təxirə salınmadan qəbul olunmasını, eləcə də saxlanılan şəxslərlə görüşməsini və təkbətək söhbət etməsini, habelə onların saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmasını dərhal təmin etməlidir.

**"Çevik araşdırma qrupu" başçəkmə zamanı adətən nə edir?**

Qrupun üzvləri baxış keçirən zaman aşağıdakıları etməyə haqlıdırlar:

- müvəqqəti saxlanılma yerlərində və təcridxanalarda saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmaq;
- saxlanılan şəxslərlə təkbətək görüşmək;
- növbətçi polis nəfəri ilə söhbət etmək;
- saxlanılan şəxslərin öz hüquqları barədə məlumatlandırılmasını müəyyən etmək və ya bunu təmin etmək;
- onların saxlanılma şəraitinin müvafiq normalara uyğunluğunu araşdırmaq;
- vəkillə və ailə üzvləri ilə əlaqə saxlaması üçün imkanın yaradılmasını öyrənmək;
- tibbi yardım göstərilməsi hallanm araşdırmaq;
- saxlanılan şəxslərə hər hansı bir təzyiq olub-olmamasını yoxlamaq;
- xüsusi sorğu vərəqələrini doldurmaq;
- zəruri hallarda müvafiq aktlar, arayışlar və ya digər sənədlər tərtib etmək, foto, video çəkiliş aparmaq, izahatlar almaq və saxlanılan şəxslərin qanunvericiliklə müəyyən edilmiş bütün digər hüquqlarının təmin edilməsini ətraflı yoxlamaq.

Bir qayda olaraq tutulmuş şəxslərin polisdə qısa müddət saxlanılmasına baxmayaraq, həmin şəxslərin saxlanılma şəraiti aşağıdakı əsas tələblərə cavab verməlidir:

- kamera Avropa standartlarına uyğun ölçüdə olmalıdır;

- kamera normal işıqlanma və ventilyasiyaya malik olmalıdır;
- kamerada istirahət üçün avadanlıq (çarpayı, döşək, örtük və s.) olmalıdır;
- gigiyena tələblərinə riayət olunmaqla zəruri hallarda təbii ehtiyacları ödəmək üçün şərait olmalıdır;
- hər gün bir dəfə isti yemək daxil olmaqla gündəlik yeməyin verilməsi təmin olunmalıdır.

Qrupun üzvləri baxış keçirdikləri zaman hər bir bina, otaq, kabinet və kameraya daxil ola bilər və onların hərəkətinə məhdudiyyət qoyulmamalıdır.

Qrupun üzvləri baxış keçirdikləri zaman müvəqqəti saxlanılma yerlərində saxlanılan bütün şəxslərin siyahısını tələb edə bilər.

Qrupun üzvləri tutulan şəxslərin səhhəti ilə bağlı sənədləri yoxlamaq səlabiyyətinə malikdir.

Baxış zamanı yetkinlik yaşına çatmayan və əqli qüsurlu şəxslərə xüsusi diqqət yetirilir.

### Hüquq mihafizə orqanları başçəkmələrin uğurlu keçirilməsi üçün hansı vəzifələri həyata keçirməlidir?

Bu orqanlar başçekmələrin uğurlu keçirilməsi üçün aşağıdakı vəzifələri həyata keçirməlidir:

- Qrupun üzvlərinin müvəqqəti saxlanılan şəxslərin saxlandığı hər hansı bir yerə məhdudiyyətsiz daxil olması və bu cür yerlərin daxilində məhdudiyyətsiz hərəkət etməsini təmin etmək;
- tutulmuş şəxslərin saxlandığı yerlər və bu qəbilədən zəruri olan digər məsələlər barəsində qrupun üzvlərini tam məlumatlandırmaq (bu cür informasiyaların əldə edilməsi üçün tətbiq olunan hüquq normalarına və peşə etikasına riayət etməklə).

### İqtisadi vəziyyət və inkişaf səviyyəsi işgəncənin və digər qəddar rəftarın tətbiqinə bəraət qazandıra bilərmi?

İşgəncənin tətbiqinin qadağan olunmasının mütləq xarakteri həmçinin onu da nəzərdə tutur ki, iqtisadi vəziyyət və inkişaf

səviyyəsi işgəncənin və yolverilməz rəftarın tətbiqinə bəraət qazandıra bilməz.

Hər hansı bir dövlətin inkişaf səviyyəsindən asılı olmayaraq həbsdə saxlama şəraitinə aid müəyynləşdirilmiş minimal normalara riayət olunmalıdır. Bu minimal tələblərə həmişə, hətta iqtisadi vəziyyət və büdcə onların yerinə yetirilməsinə çətinlik yaratdıqda belə riayət olunmalıdır.

## "Çevik araşdırma qrupu"nun başçəkmələri nə ilə nəticələnir?

Baxışlar zamanı müəyyən olunmuş qanun pozuntuları, işgəncə və zorakılıq halları hesabata daxil edilir və bu barədə, səlahiyyətli orqanlara, o cümlədən ictimaiyyətə məlumat verilir və müvafiq tədbirlər görülür.

Qrupun aşkar etdiyi halların daha geniş araşdırılması Müvəkkilin tapşırığı ilə onun səlahiyyətləri daxilində "Çevik araşdırma qrupu" tərəfindən həyata keçirilir.

Ciddi pozuntular baş verdiyi halda, audio və video materiallardan istifadə oluna bilər və bu məlumatlar vəkilə təqdim olunur.

Araşdırma nəticəsində əldə edilmiş məlumatlar yalnız Müvəkkilin göstərişi əsasında açıqlanır.

**Azərbaycan Respublİkasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

2 370 9896 **İşgəncələr haqda məlumatı təcili**

**OMBUDSMANA ÖTÜR!**

050 396 6886
Ombudsmanın 24 saat ərzində xidmət göstərən çevik araşdırma qrupu

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ**
**(OMBUDSMAN)**

**Ünvan:** AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 40, Hökumət evi, II qapı
**Əlavə məlumat üçün telefonlar:** (99412) 498 23 65, 493 74 22
**Faks:** (99412) 498 23 65, 498 85 74
**E-mail:** ombudsman @ ombudsman. gov.az
**Web-site:** www. Ombudsman. gov. az

**ATƏT-in dəstəyilə çap olunmuşdur**